Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

LEYLA QULİYEVA

# AZƏR RZAYEV

Şərq East
Qərb West
"Şərq-Qərb" Nəşriyyat Evi
BAKI
2014

Leyla Quliyeva. Azər Rzayev
Bakı, “Şərq-Qərb” Nəşriyyat Evi, 2014, 32 səh.

ISBN 978-9952-498-59-2

Elmi redaktor: Zemfira Qafarova,
Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi,
professor

Şərq East Qərb West
"Şərq-Qərb" Nəşriyyat Evi
BAKI 2014
www.eastwest.az
www.fb.com/eastwest.az
© “Şərq-Qərb” Nəşriyyat Evi, 2014



*Azər müəllim 60 ildir ki, Azərbaycan incəsənəti üçün yorulmadan çalışır. Onun yaradıcılıq yoluna nəzər salanda cəsarətlə demək olar ki, A.Rzayev Azərbaycan musiqisinin görkəmli nümayəndələrindən biridir. Bəstəkarın əsərlərinin hər biri bəstəkarlıq məktəbinə yenilik gətirərək milli musiqi xəzinəmizi zənginləşdirmişdir. Milli ruh, muğamlara bağlılıq, gözəl melodizim, dərin musiqi təfəkkürü, konsert üslubu ilə lirikanın birliyi, incə ahəngdarlıq, təkrarolunmaz harmonik dili A.Rzayev yaradıcılığının özünəməxsus xüsusiyyətlərindəndir.*

***"Sadəlik, həqiqət və təbiilik" – bütün incəsənət əsərlərindəki gözəlliyin üç dahi prinsipidir"*[1] **.**

Bu sözləri A.Rzayev yaradıcılığına şamil etsək, yanılmarıq. Bəstəkarın istər kiçikhəcmli, istərsə də böyükhəcmli əsərlərinin musiqisi, fərdi xüsusiyyətləri ilə dinləyicilərdə gözəl hislər oyada bilir. Onun bütün əsərlərində səmimi hislər, bədii fantaziya hökm sürür, duyğular və fikirlər qabarıq ifadə olunur. A.Rzayevin yaradıcılığını irəlidə geniş şəkildə araşdıracağıq. İndi isə bir qədər keçmişə qayıdaq... 1927-ci il. Həqiqət xanım[2] öz xatirələrində yazırdi: "Bir gün bəstəkar və dirijor Müslüm Maqomayev məni teatra işləməyə dəvət etdi. Nə qədər sevindiyimi təsəvvür etmək çətindir. Maqomayev məni "Mənsuriyyə" sınağından keçirmək istədi. "Çahargah" muğamının "Mənsuriyyə" şöbəsinin zil sədaları otağı bürüdü. Sınaqdan müvəffəqiyyətlə çıxdım"[3]. 1927-ci ildə 20 yaşlı qız opera teatrına qəbul olunur. Həmin il Həqiqət xanımın taleyində bir dəyişiklik də

---

[1] K.V.Qlyuk. «О музыке и музыкантах». 1969 г.

[2] Azərbaycan Respublikasının Xalq artisti Həqiqət Rzayeva

[3] Газета «Рабочий зритель», 1927 г. № 4 «Еще одна»

başverir. O, rejissor Hüseyn Rzayevlə ailə həyatı qurur. Gənc ailənin 1928-ci ildə ilk övladı Həsən (bəstəkar Həsən Rzayev), 1930-cu il iyul ayının 15-də isə Azər Rzayev Bakıda dünyaya göz açır. Onların kiçik yaşlarından musiqiyə olan maraqlarının düzgün istiqamətləndirilməsində bəstəkarların valideynlərinin, xüsusən anaları Həqiqət xanımın rolu böyük olmuşdur.

1938-ci ildə A.Rzayev Bakı şəhərinin 1 saylı orta məktəbinə daxil olur. Həmin ildən musiqi məktəbində də təhsil almağa başlayır. 1940-cı ildə bəstəkar Konservatoriyanın nəzdindəki 10 illik musiqi məktəbinin violin sinfinə qəbul olur və bu illər ərzində kiçik əsərlər bəstələməyə başlayır. 1943-cü ildə isə Azər və Həsənin kiçik bəstələrinə qulaq asan Üzeyir bəy "Oğlanların bəstəkar olacaq", – deyərək Həqiqət xanıma uşaqların musiqi ilə daha da ciddi məşğul olmalarını tövsiyə edir. Məhz dahi bəstəkarın məsləhəti ilə qardaşlar məktəbdə təzə fəaliyyətdə olan uşaq yaradıcılıq sinfində bəstəkarlıq üzrə professor B.İ.Zeydmandan təhsil almağa başlayırlar. Bəstəkarın ilk pyesləri 1946-cı ildən başlayaraq işıq üzü görür: fortepiano üçün "Hekayə", "Skerso", violin və fortepiano üçün "Fantaziya", kvartet üçün "Pyes" və s.

1948-ci ildə A.Rzayev məktəbi iki ixtisas üzrə bitirərək sənədlərini konservatoriyanın violin ifaçılığı

və nəzəriyyə – bəstəkarlıq fakültələrinə verir. Lakin qəbul imtahanlarında məlum olur ki, iki ixtisasdan biri seçilməlidir. O dövrdə konservatoriyanın rektoru Üzeyir bəy xəstə olduğuna görə onu Qara Qarayev əvəz edirdi. Qara müəllim Moskva ilə danışaraq A.Rzayevin iki fakültəyə qəbul olunmasının icazəsini ala bilir, yalnız bir şərtlə: oxuduğu dövrdə bir dəfə də olsun "kafi" qiyməti olmamalıdır. Bəstəkar qəbul imtahanlarını müvəffəqiyyətlə verərək həmin ildən violin üzrə professor S.L.Britanitski və A.M.Amiton, bəstəkarlıq üzrə isə professor B.İ.Zeydmanın sinfində təhsilini davam etdirir. İki fortepiano üçün marş, fortepiano üçün "Sonatina", fortepiano, violin və violonçel üçün trio, violin və orkestr ücün "Fədai Vətən" poeması, simfonik orkestr ücün uvertüra, orkestr ücün ikili fuqa, violin ücün iki pyes (1948-1953-cü illər) və s. əsərlər tələbəlik illərində yazılan əsərlərdəndir. Nəhayət, 1953-cü ildə A.Rzayev Azərbaycan Dövlət Konservatoriyasını iki ixtisas üzrə müvəffəqiyyətlə bitirir. Dövlət imtahanına diplom işi kimi təqdim olunan bəstəkarın ilk irihəcimli əsəri "Violin və simfonik orkestr üçün 1 saylı konsert (a-moll)" idi. Tələbə orkestrinin müşayiəti ilə Azər Rzayev konserti özü violində yüksək səviyyədə ifa edərək, demək olar ki, gələcək uğurlarına vəsiqə



qazanır. Onu da qeyd etmək lazımdır ki, orkestrə maestro Niyazi dirijorluq edirdi. Müsahibələrin birində bəstəkar demişdi ki, hər bir əsərin yaranması üçün bir səbəb və ya güclü həyat amili olmalıdır. Bu əsərin də yaranması 23 yaşlı gəncin sevgisi və ailə qurması ilə bağlıdır.

Bu əsər ilk yaradıcılıq illərində bəstəkarı məşhurlaşdırmış və bu günə kimi istedadlı və tanınmış violin ifaçılarının repertuarındadır (Azad Əliyev, Arif Manaflı, Boris Qoldşteyn, Mixail Porxomovski, Toğrul Qəniyev, Şloma Mints və s.). Sonuncu ifalardan birini qeyd etmək istərdim. 2010-cu ildə oktyabr ayının 7-də İngiltərədə keçirilən "Art Buta" festivalının qala-konsertində Azərbaycan bəstəkarlıq məktəbinin klassikləri Ü.Hacıbəyli, Q.Qarayev, F.Əmirovun əsərləri ilə yanaşı, A.Rzayevin yuxarıda adı çəkilən violin və simfonik orkestr üçün 1 saylı konserti tanınmış violin ifaçısı Şloma Mintsin ifasında Kral London Simfonik orkestrinin müşayiəti ilə (London Philhormonik Orkestra) "Southbank Centre" – zalında səslənib. 2011-ci il avqust ayının 3-də isə artıq Azərbaycanda "III Beynəlxalq Qəbələ Festivalında" (Yeni Rusiya Dövlət Simfonik Orkestri. Dirijor – R.Abdullayev) uğurla ifa olunmuşdur.

A.Rzayev 1954-cü ildə SSRİ Bəstəkarlar İttifaqına qəbul olunmaq üçün əsərlərini Moskvaya aparır. SSRİ



Bəstəkarlar İttifaqının İdarə Heyətində sədr T.N.Xrennikov başda olmaqla, dünya şöhrətli tanınmış bəstəkarlar D.Şostakoviç, D.Kabalevski və digərləri iştirak edirdilər. Qəbulda əsərlər üç mərhələdən keçməli idi. Bəstəkar elə birinci mərhələdən yekdilliklə Bəstəkarlar İttifaqına qəbul olunur. D.Şostakoviç xüsusilə bəstəkarın violin və simfonik orkestr üçün yazılmış konsertini qeyd edərək demişdir: “Konsert coşqun emosionallığı, melodik materialının aydınlığı və gözəlliyi ilə diqqətəlayiqdir. Violinin texniki imkanlarından istifadə bədii məzmunla ustalıqla uyğunlaşdırılır. Məsələn,

I hissənin texniki cəhətdən çətin və təsirli musiqisi ilə seçilən kadensiyası...”

1955-ci ilin yayında Varşavada gənclərin və tələbələrin V Ümumdünya festivalı çərçivəsində keçirilən Bəstəkarların Beynəlxalq müsabiqəsində 24 ölkədən 202 əsər içərisindən seçilən üç əsərdən biri Azər Rzayevin “Violin və simfonik orkestr üçün konsert”i mükafata layiq görülmüş və bəstəkara laureat adını qazandırmışdır. Bundan ilhamlanan gənc bəstəkar 1955-ci ildə “Simli kvartet”ini bəstələyir. Kvartet bədii şəkildə təqdim olunan maraqlı mövzular üzərində qurulmuşdur. Daha sonra bəstəkar 1956-cı ildə bir daha konsert janrına müraciət edərək “Violin və simfonik orkestr üçün II konsert”ini (G-dur) yenə də öz ifasında dinləyicilərə təqdim edir. Əsər Azərbaycan Gənclərinin Festivalında ifa olunaraq I yerə layiq görülür. Həmçinin Azər Rzayev istedadlı violin ifaçısı kimi də bu festivalda xüsusi olaraq qeyd edilir.

1954-61-ci illərdə bəstəkar digər alətlər üçün pyeslər, dram tamaşalarına musiqi bəstələyir. Nümunə olaraq valtorna üçün “Pyes”, ksilafon, marinbofon və fortepiano üçün “Yumaresko”, “Bayram uvertürası”, “Mil düzündə” mahnısı, Q.Məmmədo-

vun “Gülər” (bəstəkar H.Rzayevlə birgə), H.Bicari və Q.Cəmşidinin “Xəyanət” dram tamaşalarına musiqini, violin və fortepiano üçün “Skertso” və s. göstərmək olar. “Skertso”nu xüsusi qeyd etmək istərdim. Bu əsərə görə A.Rzayev 1962-ci ildə keçirilən Bəstəkarların Ümumittifaq Müsabiqəsində I dərəcəli diplomla təltif olunur. 1962-ci ilin axırı 1963-cü ilin əvvəllərində Azər Rzayevin yaradıcılığının parlaq nümunələrindən biri olan “Violin və fortepiano üçün sonata”sı işıq üzü görür. Məhz yuxarıda adı çəkilən “Skertso” bəstəkar tərəfindən işlənərək sonataya III hissə kimi daxil edilmişdir. Bu əsər Azərbaycanda kamera janrında bəstələnmiş ilk milli instrumental ansambl sonatalarından biridir. Sonata ilk ifadan (A.Rzayev – violin, G.Rzayeva – f-no) bu günə kimi musiqi ictimaiyyətinin diqqətini cəlb edir. Əsər müxtəlif ölkələrdə tanınmiş musiqiçilər tərəfindən ifa olunur. Boris Qoldşteyn və Ella Selkina, Yevgeni Malinin və Mariya Ştern, Fərhad Bədəlbəyli, Arif Manaflı və başqalarının adlarını çəkmək olar. Moskvada keçirilən Gənc bəstəkarların ümumittifaq baxışı zamanı sonata yüksək qiymətləndirilmişdir. “Sovetskaya muzıka” jurnalında bu barədə belə yazılmışdı: “Violinin spesifik və tembr xüsusiyyətlərinə dərindən

bələd olan sənətkar məhz belə sonata yarada bilərdi." Həmçinin 1965-ci ildə "Zaqafqaziya baharı" adlı silsilə konsertlərinə dəvət olunmuş Qazaxıstan Bəstəkarlar İttifaqının sədri Q.Jubanova dövri mətbuatda öz fikirləri ilə bölüşərək sonata haqqında belə demişdi: "A.Rzayevin sonatası özünün lirizmi, hərarəti və həyəcanlılığı ilə nəzəri cəlb edir. Bütün bu əhvali-ruhiyyə müəllif tərəfindən ustalıqla dinləyicilərə çatdırılır".

A.Rzayev sonatanın violin partiyasını daha da mükəmməlləşdirmiş, fortepiano partiyasına bir qədər də improvizə xarakteri verərək 1973-cü ilin dekabrında yeni redaksiyada P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının böyük zalında Boris Qoldşteyn (violin) və Ella Selkinanın (f-no) ifasında dinləyicilərə təqdim etmişdi.

1962-ci ildə bəstəkarın, librettosu Qulam-Rza Cəmşidi və Əbülfəz Hüseynliyə aid "Hacı Kərimin aya səyahəti" musiqili komediyası Azərbaycan Dövlət Musiqili Komediya teatrında müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Operettanın uğurunda rejissor Rauf Kazımovski, aktyorlardan Bəşir Səfəroğlu, Lütvəli Abdullayev, Nəsibə Zeynalova, Münəvvər Kələntərli, Məmmədsadıq Nuriyev, Mobil Babayev və başqalarının böyuk rolu olmuşdur.

2010-cu ildə müəllifin köməkliyi ilə bəstəkarın qızı Ülviyyə Manafova və Q.Cəmşidinin qızı Əməkdar incəsənət xadimi Sona İbrahimova operettanın yeni redaksiyası üzərində işləyərək partitura və librettonu Azərbaycan Musiqili Komediya Teatrına təqdim ediblər. Ümidvarıq kı, əsər tezliklə özünün ikinci həyatını yaşayacaqdır".

1964-cü ildə bəstəkar üçün çox əziz olan əsərlərdən biri "Fortepiano və simfonik orkestr üçün konsert" musiqisevərlərin marağina səbəb oldu. Milli koloriti, pianizmi ilə cəlb edən bu əsər A.Rzayev yaradıcılığında özünəməxsus yer tutur. Konsert bəstəkarın yeganə qızı Ülviyyəyə həsr olunmuşdur. III sinif şagirdi 9 yaşlı Ülviyyə bu əsəri tələbə simfonik orkestrinin müşayiəti ilə (dirijor Ə.Məhəmmədov) konservatoriyanın Böyuk zalında ifa edir. Əsərin ilk ifasını Ülviyyə Rzayeva belə xatırlayır: "Konsertin aparıcısı mənim adımı elan edəndə atam arxadan məni səhnəyə tərəf itələyərək yavaşca dedi: "Get və heç nədən qorxma!" Mən bu sözlərdən ürəklənərək səhnəyə çıxdım. Deyilənlərə görə, çox müvəffəqiyyətlə ifa olmuşdu". Konsert 1965-ci ilin yayında Moskva Ümumittifaq radiosunun simfonik orkestrinin müşayiəti ilə görkəmli di-

rijor Niyazinin rəhbərliyi altında Ülviyyənin ifasında lentə yazılaraq Qızıl fonda daxil edilir. Sovet bəstəkarlarının gənc ifaçılar üçün yazdıqları konsertlərin ənənələri və təcrübələrinə əsaslanan konsert geniş dinləyici kütləsinin rəğbətini qazanmışdır. Əsər bu gün də nəinki respublikamızın musiqi məktəblərində, eyni zamanda keçmiş SSRİ-nin bir çox şəhərlərində, xarici ölkələrdə uğurla ifa olunur. Fortepiano konsertinə artan maraq nəzərə alınaraq əsər bir neçə dəfə nəşr olunmuşdur. Hətta o, 1979-cu ildə Amerikada çap olunmuş "Sovet piano məktəbi ədəbiyyatı" silsiləsində yer alan ilk Azərbaycan musiqi əsəridir.

60-cı illərin ortalarından başlayaraq bəstəkar simfonik poema janrına daha çox diqqət yetirməyə başlayır. A.Rzayev bu janrın sərhədlərini genişləndirməyə çalışaraq bir-birindən gözəl, dərin məzmunlu bədii cəhətdən yüksək və zəngin musiqi dili olan poemalar bəstələyir. Bəstəkar bu janrda kamera orkestri və müxtəlif alətlər üçün bəstələnmiş 7 poemanın müəllifidir və hər bir poemada mövzunun açılması üçün özünəməxsus ifadə vasitələrindən istifadə etmişdir.

Kamera orkestri üçün yazılan "Atamın xatirəsinə" poeması məzmunca dərin və kədərli əsərlərdən biridir. Müəllif əsərdə ata itkisinin ürək ağrısını, ataya olan hörmət, ehtiramını lirik faciəvi planda çox həssas və mənalı musiqi ilə dinləyicilərə çatdıra bilmişdir. Poema ilk dəfə 1966-cı ilin dekabr ayında respublikanın Xalq artisti Nazim Rzayevin rəhbərliyi ilə Moskvada ifa olunmuşdur.

1968-ci ildə bəstəkar qiraətçi və simfonik orkestr üçün "Həyat vurğunu"; 1970-ci ildə orqan, altı litavr və kamera orkestri üçün poemalarını, 1973-cü ildə dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 600 illiyinə həsr olunmuş "Nəsimi" poemasını bəstələyir. Poemalardan A.Rzayevin simfonik orkestr, solo ud və bədii qiraətçi üçün yazdığı "Nəsimi" poeması bəstəkarın əsərləri içərisində xüsusi yer tutur. Müəllifin sözləri ilə desək, poema Nəsiminin lirik qəzəlləri əsasında yazılan lirik-dramatik lövhədir. Əsər 1985-ci ildə D.Şostakoviç adına Leninqrad (indiki Sankt-Peterburq) Filarmoniyasının zalında ifa olunub.

Bakıda isə əsər ilk dəfə A.Rzayevin 75 illik yubileyi ilə əlaqədar keçirilən konsertdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının za-

lında maestro Rauf Abdullayevin rəhbərlik etdiyi Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında musiqi ictimaiyyətinə təqdim olunub (solistlər: qiraətçi – Xalq artisti Əliabbas Qədirov, ud – Şəfa Kərimov). A.Rzayev müxtəlif musiqi alətləri üçün də poemalar bəstələmişdir. Bunlardan viola və simfonik orkestr üçün (1978), violonçel və simfonik orkestr üçün (1985) poemaların adlarını xüsusilə çəkmək lazımdır. Alətlərin texniki imkanlarını gözəl bilən bəstəkar bu əsərlərdə də onların zəngin tembr boyalarından ustalıqla istifadə etmişdir.

60-80-ci illər ərzində bəstəkar dram tamaşalarına musiqi bəstələyir. Nümunə olaraq, N.Gəncəlinin "Yanmış planetin sərvətləri", M.İbrahimovun "Kəndçi qız", İ.Əfəndiyevin "Mənim günahım", R.Heydərin "Zəng səsləri", Q.Rəsulovun "Söz yarası", B.Vahabzadənin "İkinci səs", S.Vurğunun "Fərhad və Şirin" və s. tamaşaların adını çəkə bilərik. Dram tamaşaları üçün bəstələdiyi musiqisi ilə A.Rzayev müəllif, rejissor və aktyorların fikirlərinin tamaşaçılara çatdırılmasına kömək etməyə çalışmışdır.

A.Rzayev sırf mahnı bəstəkarı olmasa da, bir çox lirik, qəhrəmani, şən məhəbbət mövzulu yaddaqalan mahnıların müəllifidir. "Lirik mahnı" (söz-

ləri N.Gəncəvi), "Heyran etdin" (sözləri M.Füzuli), "Əgər səni sevən varsa" (sözləri G.Kazım), "Qızlar yaman göyçəkdir" (sözləri D.Nəsib), "Mingəçevir dənizində" (sözləri İ.Səfərli), "Mil düzündə" (sözləri Ə.A.Kürçaylı), "Ana" (sözləri T.Əyyubov) və s. mahnı və romanslarını qeyd etmək olar. Hətta 1972-ci ildə Bakı və bakılılara həsr olunmuş Respublika Mahnı müsabiqəsində "Bakı gəncləri" (sözləri R.Heydər) mahnısına görə bəstəkar ikinci yerə layiq görülmüşdü (birinci mükafat heç kimə verilməmişdi). Bəstəkar həmçinin instrumental pyeslər üzərində işləyir, fortepiano üçün "Düşüncə", nəvəsi Leylaya həsr etdiyi "Leyla" məcmuəsini, "Nəvələr", "Söylə tanrı", "Ey gözəl" adlı mahnıları və s. əsərləri yazır.

A.Rzayevin kamil əsərlərindən biri, Azərbaycan musiqi ədəbiyyatında dəyərli töhfə kimi qiymətləndirilən, qanlı yanvar hadisələrinə, şəhidlərimizə həsr olunmuş "Bakı-90" simfoniyası müəllifin yaradıcılığında böyük nailiyyət kimi qeyd olunur.

Əsər ilk dəfə dinləyicilərin qarşısında 1990-cı il noyabr ayının 4-də M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Xalq artisti, istedadlı dirijor-interpretator Rauf Abdullayevin rəhbərliyi ilə Ü.Hacıbəyli adına simfonik orkestrin ifasında səslə-

nib. Əsərin kuliminasiya nöqtəsində faciəni daha da qabarıq vermək üçün "Qurani-Kərim"in "Bəqərə" surəsindən beşinci ayənin (azanın) oxunması simfonik musiqimizdə ilk dəfə işlədilmişdir.

Bəstəkarın 90-cı illərdə yaratdığı əsərlər arasında violin və fortepiano üçün "Sonatina" (1990), "6 simfonik lövhə" (1992), violonçel və kamera orkestri üçün "Kantilena " (1995) və s. adlarını çəkmək olar. Müəllif sonatinanı "Keçmişi yada salarkən" adlandıraraq onu violin ifaçısı Tacəddin Manafzadəyə həsr etmişdir. "6 simfonik lövhə"lərdə isə bir-birindən fərqli, milli rəqslərimizin ritm və elementləri ilə zəngin olan parlaq və ehtiraslı musiqi canlanır. Bu əsərdə də bəstəkarın həm orkestrləşmə, həm də milli xüsusiyyətləri ifadə etmək ustalığı diqqəti cəlb edir. "6 simfonik lovhə" ilk dəfə 1992-ci ildə Azərbaycan Bəstəkarlarının plenumunda gənc dirijor (hal-hazırda respublikanın Xalq artisti) Yalçın Adıgözəlovun rəhbərliyi ilə Ü.Hacıbəyov adına simfonik orkestrin ifasında müvəffəqiyyətlə ifa olunmuşdur. Violonçel üçun "Kontilena" A.Rzayev yaradıcılığında xüsusi bir yer tutur. Çünki bu əsər Azər müəllimin çox hörmət etdiyi sənət dostu Azərbaycan violonçel məktəbinin banisi, respublikada ilk kvartetin yaradı-

cısı, gözəl müəllim və insan, professor Sabir Əliyevə həsr olunub. Bəstəkar "Kontilena"da tanınmış ifaçının yaradıcılığına xas olan həssaslıq, parlaq emosianallıq, güclü iradə və s. bu kimi xüsusiyyətləri musiqi dili ilə dinləyicilərə çatdırmağa çalışmışdır. Pyes öz melodik incəliyi və səmimiyyəti ilə cəzb edir.

1990-98-ci illər ərzində A.Rzayev öz əsərləri ilə yanaşı, muğamların, xalq mahnılarının, məşhur bəstəkarların əsərlərinin milli və digər alətlər üçün işləmələrinə daha çox vaxt ayırır. Qeyd etmək istərdim ki, işləmələrin bir çoxu məşhur tarzən Xalq artisti Ramiz Quliyev tərəfindən artıq bir çox ölkələrdə ifa olunub. Bəstəkarın iki tar və kamera orkestri üçün "Düşüncə", "Qaytağı", səs, tar, kamança və kamera orkestri üçün "Ovşarı", tar və kamera orkestri üçün "Heyratı" zərb muğamı, fleyta və kamera orkestri üçün "Mirzeyi" və "Vağzalı" rəqsləri, kişi və qadın səsi, tar, kamança və kamera orkestri üçün "Qarabağ şikəstəsi", qaboy və kamera orkestri üçün "Aman ovçu" orkestr üçün "Bazarda alma", "Səndən mənə yar olmaz" xalq mahnılarının və s. işləmələrin adlarını çəkmək kifayət edər. Belə bir repertuara müraciət A.Rzayev yaradıcılığının əsasını təşkil edən

milli incəsənətə, xalq ifaçılığı ənənələrinə məhəbbətindən irəli gəlir.

A.Rzayev 2000-ci ildə yenidən konsert janrına müraciət edərək üç violin və simfonik orkestr üçün konsertini yazır.

A.Rzayev tanınmış bəstəkar olmaqla yanaşı, qeyd etdiyimiz kimi, gözəl, violin ifaçısı, yüksək səviyyəli müəllim, uzun müddət konsert fəaliyyəti ilə məşğul olan sənətkardır. Həmkarları Azər müəllimi violinsiz təsəvvür etmirlər; 1943-cü ildən bu günə kimi violin və Azər müəllim bir-birindən ayrılmaz dostlar kimi vəhdət təşkil edir. Azər müəllim 1953-cü ildən 10 illik musiqi məktəbində violin müəllimi, eyni zamanda Azərbaycan Dövlət Konservatoriyasında (BMA) konsertmeystr, 1957-ci ildən kamera ansamblı üzrə müəllim vəzifəsindən professor (1977) rütbəsinə kimi qalxaraq 1991-ci ildən Kamera ansamblı kafedrasının müdiri, 1999-cu ildən 2013-cü ilə qədər isə Simli kafedranın müdiri vəzifəsində çalışmışdır. Hal-hazırda bəstəkar-professor məsləhətçi kimi müəllimlik fəaliyyətini davam etdirir. Azər müəllim tələbə illərindən başlayaraq öz əsərləri ilə yanaşı, klassik, rus müasir bəstəkarların əsərlərinin mahir ifaçısı kimi də tanınmışdır. A.Rzayevin ifaçılıq istedadı ondadır ki, o bütün məharətini ifa etdiyi

bəstəkarın fikrini göstərməyə, hər əsərin məzmununu, daxili aləmini, bədii qüvvəsini dinləyicilərə çatdırmağa çalışır. A.Rzayev kamera ansamblı sahəsində də əla mütəxəssisdir. O, daima silsilə sonata gecələri ilə dinləyicilərin diqqətini cəlb edirdi. Bu konsertlərdə Azər müəllimin tərəf müqabili, əsasən, həyat yoldaşı Gülər xanim, qızı Ülviyyə Rzayeva (Manafova) idi.

Bakı Musiqi Akademiyasının dosenti Gülər xanım ömrünün sonuna kimi Azər müəllimlə çiyin-çiyinə çalışmış, onun violin və fortepiano üçün yazdığı əksər əsərlərinin ilk ifaçısı olmuşdur. Bəstəkarın yaradıcılıq uğurlarında Gülər xanımın rolu az deyildi.

Mədəniyyətimizdə böyük xidmətləri olan iki böyük nəslin nümayəndələri olan bu cütlüyü Bakı Musiqi Akademiyasında "Qu quşlarına" bənzədirdilər. Onlar qu quşları kimi bir-birinə sədaqətli olub, ömürlərini Azərbaycanın musiqi mədəniyyətinin inkişafına həsr etmişlər. Bu duet təkcə Bakıda deyil, keçmiş SSRİ-nin bir çox şəhərlərində konsertlərlə çıxış edib. Proqrama çox vaxt xarici və sovet bəstəkarlarının Bakıda ilk dəfə səslənən əsərləri daxil edilirdi.

Bəstəkar ömrünün müəyyən mərhələlərində müxtəlif sahələrdə işləməsinə baxmayaraq, onların

heç biri pedaqoji fəaliyyətini əvəz etməyib. Bu gün də Azər müəllimin sinfindən böyük sənət aləminə vəsiqə alan məzunların konsert salonlarında, dövlət tədbirlərində müvəffəqiyyətli çıxışlarının şahidi oluruq .

A.Rzayev çoxşaxəli yaradıcı şəxsiyyətdir. O, həmişə bildiyi, bacardığı hər bir işlə paylaşmağa can atırdı. Təsadüfü deyil ki, onun təşəbbüsü ilə 1970-ci ildə tərkibində f-no, violin və violonçel olan üçlük yaranır[18]. Təcrübəli və peşəkar ifaçılardan ibarət trionun geniş çalğı imkanları və kamil zövqü var idi. 1991-ci ildə yeni bir üçlük – "Azəri" triosu Bakının musiqi həyatında uğurla addımlamağa başlayır. İnstrumental üçlüyün heyətinə daxil olan musiqiçilər musiqi aləmində tanınmış ifaçılar idi. 1991-92-ci illərdə musiqi rəhbəri olduğu "İlham" qədim və müasir musiqi orkestri xarici qastrol səfərlərində rəğbətlə qarşılanır (bəstəkarın işləmələrinin çoxu məhz bu orkestr üçün hazırlanmışdır).

1993-cü ildə bədii rəhbəri F.Bədəlbəyli, musiqi rəhbəri isə A.Rzayev olan "Rast" kamera orkestri fəaliyyətə başlayır. 1997-ci ildə Bülbül adına orta ixtisas musiqi məktəbində dünya təcrübəsində nadir hallarda rast gəlinən uşaq simfonik orkestri təşkil



edərək A.Rzayev orkestrin bədii rəhbəri və dirijoru kimi çalışır. Orkestrə məktəbin 4-11-ci siniflərində təhsil alan 45 nəfər istedadlı şagird cəlb edilmişdir. Məlumdur ki, uşaq musiqi kollektivlərini yaratmaq asan iş deyil. O dövrdə Bülbül adına orta ixtisas musiqi məktəbinin direktoru Nigar xanım Cərullanın təklifi, əvəzolunmaz mənəvi dayağı olmasaydı, bəlkə də, bu orkestr yaranmazdı. Lakin Azər müəllim bu təklifi tərəddüdlə qəbul etsə də, özünün peşəkarlığı, uşaqlara olan sevgisi, doğma məktəbinə olan hörməti ilə belə bir çətin vəzifənin öhdəsindən şərəflə gəlir və yüksək səviyyəli musiqi kollektivi yaradır. O hətta uşaqların ifaçılıq məharətini, yaş xüsusiyyətlərini, orkestrin imkanlarını nəzərə alaraq, bir çox əsərləri yenidən işləyərək repertuara salırdı. Azər müəllimin bu orkestr üçün bəstələdiyi "Gənc musiqiçilərin marşı" uşaqların sevimli əsərinə, orkestrin himninə çevrilmişdir. Beləliklə, Şərqin ilk Uşaq Simfonik Orkestrinin hesabat konserti 1998-ci ildə Bakı Musiqi Akademiyasının böyük zalında baş tutur. Azər müəllimin və uşaqların ilyarımlıq zəhmətlərinin bəhrəsi göz qabağında idi. Proqramda Azərbaycan, rus və klassik bəstəkarlarının əsərləri səsləndirilmişdir. Onu da qeyd etmək istərdim ki,

A.Rzayevin kamera orkestri və violonçel üçün bəstələdiyi "Kontilena" əsəri ilk dəfə Uşaq Simfonik Orkestrinin müşayiəti ilə Rasim Abdullayevin ifasında məhz bu konsertdə ifa olunub. Bəstəkarın digər əsərlərinin də daxil edildiyi bu konsert proqramı dinləyiciləri heyran etmişdir. Orkestr 10 ilə yaxın fəaliyyəti dövründə bir çox ifaçılar üçün debüt, bir çoxları üçün isə böyük səhnəyə, məşhur musiqi kollektivlərinə keçid üçün bir tramplin olmuşdur. Nəzərinizə çatdırım ki, 2002-ci ildə orkestrin 5 yaşı tamam olması münasibətilə keçirilən konsert bu günə kimi müəllim və şagirlərin, bir çox tanınmış elm, sənət adamlarının da yaddaşında musiqi bayramı kimi qalmışdır. Konsertin ən yaddaqalan anlarından biri də Azər müəllimin pult arxasında yerini assisenti Bakı Musiqi Akademiyasının III kurs tələbəsi Əyyub Quliyevə verməsi idi. Adətən, səhnədə tarzən kimi çıxış edən Əyyubun gənc dirijor kimi çıxışı xüsusi alqışlarla qarşılandı. Azər müəllim sanki Əyyubun gələcəkdə bu sahənin aparıcı liderinə, Azərbaycanı dünyada tanıdan istedadlı dirijora çevriləcəyini öncədən görmüşdür. Ümumiyyətlə, konsertlər bir də onunla əlamətdar idi ki, orada uşaqlarla birgə balaca musiqiçilərin

gələcək müəllimləri, görkəmli ifaçılar – Fərhad Bədəlbəyli, Fidan və Xuraman Qasımova bacıları, Ramiz Quliyev kimi sənətkarlar çıxış ediblər. Hətta orkestr haqqında "Böyük sınaq" adlı film də çəkilib. "Bakılı" Beynəlxalq Mədəniyyət Cəmiyyəti tərəfindən "Musiqi" nominasiyasında A.Rzayev Uşaq Simfonik Orkestrinin yaradıcısı kimi "Humay ilahəsi – 2001" milli mükafatı ilə təltif olunaraq laureat adını qazanmışdır.

A.Rzayevin fəaliyyəti qeyd etdiyimiz kimi təkcə yaradıcılıqla məhdudlaşmır: 1957-1960-cı illərdə Radio və Televiziya Komitəsində səs rejissoru, 1965-ci ildə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında bədii rəhbər, 1966-72-ci illərdə Bəstəkarlar İttifaqının hərbi-patriotik musiqi komissiyasının sədri, 1972-1987-ci illər ərzində M.F.Axundov adına Akademik Dövlət Opera və Balet teatrında direktor vəzifəsində çalışıb. 1992-ci ildə Azərbaycan Teatr Xadimləri İttifaqı tərəfindən təsis olunmuş "Qızıl Dərviş" mükafatı komissiyasinin sədri olan bəstəkar ilk laureatların adını açıqlayaraq, Xalq artistləri Firəngiz Şərifovaya, Yaşar Nuriyevə, teatrşünas, Əməktar incəsənət xadimi İlham Rəhimliyə təntənəli surətdə mükafatı təqdim etmişdir. Bun-

dan başqa Mədəniyyət fondunda "Sönməyən ulduzlar" assosasiyasının sədri işləmişdir. Bu siyahını uzatmaq da olar.

Azər Rzayevin musiqi mədəniyyətimizin ictimai həyatında gördüyü işlər, müxtəlif illərdə tutduğu məsul vəzifələr bir-biri ilə sıx bağlı idi və Azər müəllim bunlardan hər birinə eyni dərəcədə məsuliyyətlə yanaşırdı. Gözəl təşkilatçı olan Azər müəllim özünün yüksək mədəniyyəti, dünyagörüşü, insanlarla ünsiyyət qurmaq bacarığı ilə Opera və Balet teatrının çoxsaylı, mürəkkəb tərkibli kollektivinə 15 il rəhbərlik etmiş və sözün əsl mənasında kollektivin bədii rəhbəri olmuşdur. O, opera səhnəsinə vaxtilə gənc, hal-hazırda adlı-sanlı bir çox ifaçıları, o cümlədən Fidan və Xuraman Qasımovalar, Səkinə İsmayılova, Canəli Əkbərov, Qəndab Quliyeva və başqalarını teatra cəlb etmişdir.

Gözəl çıxış etmək qabiliyyətinə malik olan Azər Rzayev 30 ildən artıq dövri mətbuatda, radio və televiziyada apardığı "Azərbaycanın musiqi tarixinin səhifələri", "Opera səhnəmizin ustaları", "Musiqi aləmində" və s. silsilə verilişlərlə musiqi mədəniyyətimizin təbliğatçısı kimi pərəstişkarlar qazanmışdır. Bundan başqa, professor S.Qasımovla birgə 1988-89-cu il-



lərdə "M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrı – 80" adlı monoqrafiya üzərində işləmişdir. Ümumiyyətlə Azər müəllim, tanınmış musiqiçi kimi, professional ifaçılara lazım olan ədəbiyyatın Azərbaycan dilində olmasını zəruri hesab edirdi. Bu səbəbdən A.Rzayev həm Azərbaycan bölməsində təhsil alan, həm də xarici ölkələrdə yaşayan azərbaycanlı vokal ifaçıları üçün vacib olan V.P.Morozovun "Vokal nitqinin sirləri" adlı kitabını Azərbaycan dilinə tərcümə etmişdir.

A.Rzayevin musiqi mədəniyyətimizin inkişafında göstərdiyi xidmətləri və yaradıcılığı daim Azərbaycan hökuməti tərəfindən layiqincə qiymətləndirilmişdir. Bəstəkar dəfələrlə fəxri fərman və medallarla təltif edilmişdir. 1972-ci ildə Əməkdar incəsənət xadimi, 1990-cı ildə Xalq artisti adını almış, 2000-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmiş, 2010-cu ildə isə 80 yaşı tamam olması münasibətilə Azərbaycan Prezidentinin "Fəxri diplomu"na layiq görülmüşdür.

Azər müəllim 60 ildir ki, Azərbaycan incəsənəti üçün yorulmadan çalışır. Onun yaradıcılıq yoluna nəzər salanda cəsarətlə demək olar ki, A.Rzayev Azərbaycan musiqisinin görkəmli nümayəndələrindən biridir. Bəstəkarın əsərlərinin hər biri bəstəkar-



lıq məktəbinə yenilik gətirərək milli musiqi xəzinəmizi zənginləşdirmişdir. Milli ruh, muğamlara bağlılıq, gözəl melodizim, dərin musiqi təfəkkürü, konsert üslubu ilə lirikanın birliyi, incə ahəngdarlıq, təkrarolunmaz harmonik dili A.Rzayev yaradıcılığının özünəməxsus xüsusiyyətlərindəndir.

"Bəstəkar öz fikirlərini doğma musiqi dilində ifadə etdikdə xalqa yaxın olur" – dahi Üzeyir bəyin bu sözlərini, irsini əsas götürən bəstəkar xalq musiqisinə arxalanaraq xalqı düşünüb, xalq üçün yaşayıb, əsərlərini xalqına bəxş edib.

"Şərq-Qərb" Nəşriyyat Evi

www.eastwest.az
www.fb.com/eastwest.az

Buraxılışa məsul: Sevil İsmayılova
Dizayner: Gülnar Qurbanova
Səhifələyici: Ayaz Abdulzadə
Korrektor: Nübar Qarayeva
Texniki redaktor: Fəridə Səmədova
Baş redaktor: Samirə Bektaşi
Texniki direktor: Allahverdi Kərimov
Nəşriyyat Evinin direktoru: Rasim Müzəffərli

Çapa imzalanmışdır: 06.06.2014. Format: 70x100 1/32. Ofset çapı
Fiziki çap vərəqi 1. Sifariş 14204. Tiraj 500

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49